# Kiçik məktəblilərdə bədii qiraət üzrə aparılan işlərin şagirdlərin ümumi tərbiyəsinə təsiri

**Nigar Ədilova**
*Bakı Qızlar Universiteti*
**E-mail:** adilzade.nigar@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. Q.İ. Məşədiyev,
p.ü.f.d., dos. P.M. Həsənova

**Açar sözlər:** əxlaq tərbiyəsi, bədii söz, nitq inkişafı, ifadəli oxu, mənəvi dəyərlər

**Ключевые слова:** нравственное воспитание, художественная речь, развитие речи, выразительное чтение, нравственные ценности

**Key words:** moral upbringing, artistic speech, speech development, expressive reading, moral values

Bədii qiraət estetik zövqlərin formalaşmasında, inkişafında, təkmilləşməsində mühüm vasitələrdən birinə çevrilmişdir. Aydındır ki, estetik zövq təbiətin kamil əsəri olan insana məxsusdur, dil də insana məxsusdur. Hələ 1300 il bundan əvvəl Azərbaycan sərkərdəsi Cavanşirin ölümü münasibətilə Dəvdəyin yazdığı qəsidəyə "Danışarkən dodağından mirvarilər tökülürdü" misrası heç də təsadüfi daxil olmamışdır.

Müasir dövrdə yeni nəslin vətəninə, torpağına, soy-kökünə bağlılığını onun əsl vətəndaş kimi yetişməsini təmin etmək üçün təhsilin ilk pilləsindən başlayaraq bütün imkanlardan istifadə edilməsi mühüm vəzifələrdən biridir. Bədii qiraət özünün məzmunu ilə uşaqlarda xalqına, vətəninə coşqun məhəbbət hissinin tərbiyə edilməsinə, onların vətənpərvər ruhda yetişməsinə xidmət edir. Bədii söz qüdrətli tərbiyə vasitəsidir. Onun vasitəsilə şagirdlər milli-mənəvi sərvətlərimizi öyrənir,yüksək insani keyfiyyətlərə, əxlaqi dəyərlərə yiyələnirlər.

Kiçikyaşlı məktəbli mütaliə etməklə öz zehnini yeni təvəssür və surətlərlə, məfhum, fikir və ideyalarla zənginləşdirir və onun mübariz, vətənpərvər, iradəli, milli mənlik şüuruna yiyələnən şəxsiyyət kimi formalaşmasının əsası qoyulur. Bədii qiraət hansı bir məlumatı mənimsəmək üçün başlıca alətlərdən biridir. Uşaq hər şeyi öyrənməkdə və tərbiyə almaqda başlıca olaraq, sözdən istifadə etdiyi üçün oxu bütün təlim və tərbiyə işlərinin mühüm vasitəsi kimi özünü göstərir. Kiçik məktəb yaşlı uşaqların lüğət ehtiyatının zənginləşməsində bədii əsərin xüsusi əhəmiyyəti vardır. Belə ki, o, xalq nağıllarına, maraqlı hekayələrə qulaq asmağı çox sevir. Bədii əsərlər şagirdlərə hər şeydən əvvəl şadlıq gətirir, öz zəngin məzmunu ilə onları özünə cəlb edərək bədii obrazları, ifadəli dili və ahəngdarlığı ilə onların marağını oyadır. Kiçik məktəbyaşlı uşaqlar bədii söz vasitəsilə ədəbi dilə sahib olur və bədii danışma qabiliyyətini mənimsəyirlər. Buna görə də bədii sözün ana dilinin inkişafındakı rolu çox böyükdür. Bədii söz vasitəsilə uşaq ana dilini, onun qrammatik quruluşunu öyrənir və öz lüğətini zənginləşdirir.

Söz kiçik məktəbyaşlı uşaqların nitq fəaliyyətinə eşidildiyi və tələffüz edildiyi şəkildə təsir edir, uşaq onu əhatə edən ictimai mühitdə eşitdiyi sözləri təhlil etmədən olduğu kimi qavrayır və ifadə edir. Təkrar nəticəsində həmin sözlər beyin qabığı üzərində iz buraxır və möhkəmlənir. Ona görə də uşağın düzgün nitqə yiyələnməsi işində onu əhatə edən yaşlıların düzgün və ədəbi dildə danışmaları böyük əhəmiyyətə malikdir. Odur ki, uşağın böyüklər tərəfindən eşitdikləri sözlər, cümlələr qrammatik cəhətdən düzgün ifadəli, aydın və anlaşıqlı

olmalıdır. Bu tələblər kiçik məktəbyaşlı uşaqların nitqini inkişaf etdirmək işində xüsusilə əhəmiyyətlidir, çünki bu dövrdə uşaq dilin qrammatik quruluşuna yenicə alışmağa başlayır. Bunun üçün həm valideyn, həm də müəllimlər öz nitqlərinin bədii, obrazlı və mənalı olması üzərində xüsusilə çalışmalıdır. Hər bir bədii nümunə xalqın öz sərvətinə dərin məhəbbət tərbiyə edir. Uşaqlar hadisələri bədii obrazlarla daha səmərəli qavrayırlar.

Müəllimlər xalqımızın mənəvi sərvətlərinə yaxından bələd olmalı, kiçik məktəbyaşlı uşaqların həyata hazırlığının düzgün istiqamətləndirilməsində bədii ədəbiyyatdan, oradakı müsbət obrazlardan istifadə etməyi bacarmalıdır. Bunlar uşaqların tərbiyəsinə təsir edən qüvvətli amillərdəndir və onların mənəviyyatını zənginləşdirir, vətənin ləyaqətli övladları kimi böyümələrinə müsbət təsir göstərir.

Bədii ədəbiyyatın böyük tərbiyəvi qiyməti kiçik məktəbyaşlı uşağın ətraf mühitdəki həqiqəti dərk etməsinə, qəlbində milli şüurun ilk əlamətlərinin yaranmasına təkan verir. Bədii oxuya yaxşı yiyələnmək uşaqların müvəffəqiyyətlə təhsil almalarına, düzgün tələffüz, ifadəli oxu, rabitəli nitq vərdişlərinin inkişafına, orfoqrafiya və nitq bacarıqlarının möhkəmlənməsinə, təfəkkür fəaliyyətinin formalaşmasına, onları tam savadlı, ədəbi dilə mükəmməl yiyələnmiş şəxsiyyət kimi yetişməsinə, müstəqilliyinin və yaradıcı təşəbbüsünün inkişafına, şagirdləri həyata məişətə əməli cəhətdən hazırlamağa kömək edir. Məktəblilərin şüuruna hisslərinə davranışına bədii qiraət məqsədyönlü, sistematik təsir göstərir, əxlaqi keyfiyyətləri formalaşdırır. Hər bir insanın yaşamaq kimi ən ali və müqəddəs hüququ var. Uşaqların canına ana südü ilə hopdurulmalıdır ki, başqa adamların həyatına  və sağlamlığılna qəsd etmək olmaz. Çox təəssüf ki, son vaxtlar şagirdlər arasında özünəqəsd halları böyük təşviş doğurur. Burada mənəvi, sosial, psixoloji səbəblər vardır.

Demokratikləşmə şəraitində kiçikyaşlı məktəblilərin hüquqları və azadlıqları artmışdır. Lakin onların mədəni səviyyəsinin aşağı olması özünü biruzə verir. Mədəni səviyyəsi aşağı olan adam demokratik ünsiyyət üslubunu sonsuz azadlıq kimi başa düşür. Ona elə gəlir ki,onu əhatə edən adamların hisslərini heysiyyətin inkar etmək hüququna malikdir. Əslində isə azadlıq və məsuliyyət, azadlıq və intizam bir-birindən ayrılmaz anlayışlardır. Məktəbdə sözəbaxan olmaq vacibdir. Bu məktəblilərlə iş zamanı tərbiyə işini səmərəli qurmağın şərtlərindən biridir.  Məktəbli sözəbaxan olmaqdan məsuliyyətli olmağa, şüurlu intizama tez keçməlidir.

Doğruçuluq, xeyirxahlıq, təmənnasızlıq, borc, şərəf, vicdan, beynəlmiləlçilik, vətənpərvərlik kimi keyfiyyətlər mühüm əhəmiyyət kəsb edir. Təəssüf ki, cəmiyyətdə alkoqolizm narkomaniya müftəxorluq  əxlaqsızlıq qəddarlıq təcavüzkarlıq kimi neqativ hallara rast gəlirik və onlar məktəb və ailə tərbiyəsinə ciddi zərər vurur. Bu cür hallar həm əxlaqi mühiti, həm də insanın özünü korlayır.İnsan həm mənəvi, həm də fiziki cəhətdın korlanır. Ümumiyyətlə, əxlaqi meyarlar digər meyarlardan üstün tutulmalıdır.

Kollektivçilik, vətəndaşlıq, şüurlu intizam kimi bir çox əxlaqi keyfiyyətləri tərbiyə etmək üçün başqalarının qayğısına qalmaq, insanların dərdinə şərik olmaq, özünün eqoist ehtiraslarını dayandırmaq, insanlar qarşısında öhdəlikləri yerinə yetirmək mənimsənilir.

Məktəbdə müəllimlər tərbiyəvi işlərin strukturuna insan əxlaqı haqqda məlumat daxil etməlidirlər. Əxlaqın norma və prinsiplərini, mahiyyətini başa düşmək şagirdlərə əxlaqi mühakimələr yürütməyə, həm özlərinin, həm də başqalarının hərəkətlərini qiymətləndirməyə imkan verir.

**Məqalənin aktuallığı.** Kiçik yaşlı məktəblilərin ümumi tərbiyəsi ilə bağlı məsələlər həmişə ailə, məktəb, ümumilikdə cəmiyyətin qarşısında duran əsas problemlərdəndir. Çünki bu, ilk növbədə ölkənin gələcəyi üçün layiqli davamçıların yetişdirilməsində vacib

şərtlərdəndir. Məqalə də bu sahədə onların ümumi tərbiyəsində mühüm rol oynayan xüsisi bir məsələyə-bədii qiraət üzrə aparılan işlərə həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə kiçik məktəblilərdə bədii qiraət üzrə aparılan işlərin şagirdlərin ümumi tərbiyəsinə təsirinin başlıca xüsusiyyətləri nəzərdə keçirilir, məktəblilərdə doğruçuluq, xeyirxahlıq, təmənnasızlıq, borc, şərəf, vicdan, beynəlmiləlçilik, vətənpərvərlik kimi milli keyfiyyətlərin formalaşmasında əhəmiyyəti qeyd olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. M.Əsgərov. Bədii qiraət. Bakı, 1973.
2. Ə.Paşayev, F.Rüstəmov. Pedaqogika tarixi. Bakı, 2010.
3. N.Cəfərova. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Dərslik. I hissə. Bakı, 2016

**Н. Адилова**

## Влияние работы по литературное чтение на общие воспитании учеников младших класс

## Резюме

«Литературное чтение» был введен в учебные планы начальной школы в конце прошлого века. Это стало существенным продвижением в начальном образовании: теперь у традиционных уроков чтения появились новые цели литературного образовании. Начальный курс литературного чтения рассматривается как предмет, обеспечивающий решение не только функциональных задач обучения, но и как более широкое литературное образование младших школьников: воспитание интереса к чтению и художественной литературе; развитие культуры восприятия художественного текста, формирование умения ориентироваться в литературоведческих понятиях, расширение читательского кругозора.

Одной из причин потери интереса современного школьника к чтению, недооценки роли литературы в развитии человека, отсутствия читательского кругозора и культуры читательской деятельности является педагогически нецелесообразный процесс обучения в начальной школе. «Жесткая привязанность» к дидактическим способам изучения художественных произведений, почти полное отсутствие их полноценного восприятия.

**N. Adilova**

# Influence of the work of artistic writing on the general education of pupils in small pupils

## Summary

Many studies show that toddlers and pre-schoolers who are read to every day have a larger vocabulary than those who aren't read to at all. It turns out that reading there are many advantages and benefits of reading. Not only does reading enhance a child's vocabulary, and to help them understand how to read and write, but reading aloud to children also helps them to understand different topics about the world and every day life.

One of the great benefits of reading with children is watching their growing imagination. When we really engage in a book we imagine what the characters are doing. We imagine the setting as reality. While you may speak with your children every day, the vocabulary you use is often limited and repetitive. Reading books ensures that your child is exposed to vocabulary on different topics, which means they hear words or phrases which they may not hear otherwise in their day to day lives.

**Redaksiyaya daxil olub:**18.05.2019